# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQUNUN MƏZMUNU

T.T.VƏLİYEV
*Bakı Dövlət Universiteti*

Tədqiq olunan hüquq bir çox beynəlxalq hüquqi sənədlərdə, həmçinin müxtəlif ölkələrin milli qanunvericiliyində öz əksini tapmışdır. Amma çox vaxt bütün sənədlərdə məhz «ədalətli məhkəmə araşdırması hüququ» termini ilə rastlaşmaq olmur. Bu hüquqdan ibarət siyahını özündə birləşdirən bir çox normativ aktlarda biz məhkəmə araşdırması hüququnu obyektiv olaraq araşdıracağıq. Bu halda bu hüququn əhatəsi hər yerdə eyni deyildir. Qeyd etmək olar ki, müxtəlif ölkələrin qanunvericiliyində bu hüququn vahid şəklə salınmış, unifikasiya olunmuş şəkildə möhkəmlənməsinə rast gəlinmir. Onda belə bir sual ortaya çıxır: Bu nə ilə bağlıdır? Ədalətin və ya ümumiyyətlə, prosessual ədalətin ayrıca, müxtəlif cürə qavranılmasıdırmı?

Yuxarıda deyilənləri nəzərə alaraq, biz məntiqi olaraq ədalətli məhkəmə araşdırması hüququnun tədqiqində «ədalət»in nə olduğunu və tədqiq olunan hüquq kontekstində «ədalətli araşdırma» anlayışının hansı məna kəsb etdiyini müəyyən etməliyik.

Ədalət - minilliklər boyu fəlsəfi tədqiqatın obyekti olmuşdur. Onun haqqında mülahizələrə antik filosofların əsərlərində rast gəlmək mümkündür. Bugünkü gün üçün isə ədalətin nə olduğu haqqında yüzlərlə söylənilmiş nöqteyi-nəzərlərə rast gəlmək olar.

Ədaləti müxtəlif aspektlər üzrə araşdırmaq olar və lazımdır: fəlsəfi, sosial, hüquqi, siyasi, mədəni və iqtisadi aspektlər üzrə.

Ədalət – hüquqi sferada aşağdakı keyfiyyətlər üzrə çıxış edir:

1. Hüquqi fəaliyyət prinsipi;
2. Hüquqi prinsip;
3. Hüquq qəbuletmə fəaliyyətinin meyarı;
4. Bütün hüquq və hüquqyaratma prosesinin məqsədi (1, s. 93);

Belə təsəvvür yaranır ki, ədalət anlamı abstraktdır, konkret təcəssümə ehtiyacı vardır və buna görə də müxtəlif məna kəsb edə bilər. Birincisi, «ədalət» ideal dəyər kimi çıxış edir. İkincisi, «ədalət»i həqiqətlə eyniləşdirmək olar. Üçüncüsü, tədqiq olunan məfhum cəmiyyətin qarşılıqlı anlamında ideal qanunauyğunluğun cəmini anlatmaq üçün istifadə olunur. Burada qeyd etmək vacibdir ki, Azərbaycan dilinin izahlı lüğətində «ədalət» - hərəkət və münasibətlərin əxlaq və hüquq normalarına uyğunluğu, haqq və insaf prinsiplərinə riayət kimi dəyərləndirilmişdir (2, s. 231). Bu mənada həmçinin «sosial ədalət» terminindən də istifadə oluna bilər. Cəmiyyətdə «sosial ədalət»in uğuru və müdafiəsi üçün, bu cür cəmiyyət şəraitini əldə etmənin üsul və vasitələrini müəyyən edən normaların olması qaçılmazdır. Bu kimi mühüm vasitələrdən biri kimi

də «prosessual ədalət» çıxış edir. Dördüncüsü, «ədalət» anlamı məhz «prosessual ədalət»i ifadə etmək üçün istifadə olunur.

Göründüyü kimi, «ədalət» terminini bir neçə istiqamət üzrə tədqiq etmək mümkündür. Buna baxmayaraq heç bir beynəlxalq-hüquqi aktda bu anlamın məzmunu möhkəmləndirilməmişdir. Zənn etmək olar ki, bunun səbəbi «ədalətli məhkəmə araşdırması» prosesinin bəzi ölkələrdə fərqli olmasıdır.

Araşdırılan bütün beynəlxalq hüquqi sənədlər tədqiq olunan hüququn məzmununu digər daha konkret prosessual hüquq vasitəsi ilə açır. Bu hüquqların hər birini ayrıca araşdırmaq məqsədəuyğun deyildir. Belə ki, hüquqi ədəbiyyatda bunların hər biri haqqında lazımınca danışılıbdır. Bizə belə gəlir ki, bu hüquqları növlərə bölmək və onların öhdəliklərini göstərmək daha vacib olardı. Məhkəmə araşdırmasının xarakterindən asılı olaraq prosessual hüququ əsasən iki qrupa bölmək olar:

A) Cinayət əməlində ittiham olunan şəxslər üçün prosessual hüquq:

1. Məhkəmə ilə ünsiyyətdə olmaq hüququ; 2. Bərabər prosessual imkanlara malik olmaq; 3. Məhkəmə araşdırmasının açıq şəkildə aparılması hüququ; 4. Məhkəmə araşdırmasının ağlabatan müddətə aparılması hüququ; 5. Araşdırmanın müstəqil məhkəmə tərəfindən aparılması hüququ; 6. Araşdırmanın bitərəf məhkəmə tərəfindən aparılması; 7. Məhkəmə araşdırmasının qanun əsasında yaradılmış məhkəmə tərəfindən aparılması; 8. Təqsirləndirilən şəxsə, ona elan olunan ittihamın xarakterini gecikdirmədən bildirmək hüququ; 9. Təqsirsizlik prezumbsiyası; 10. Öz müdafiəsi üçün lazımi vaxtı və imkanı əldəetmə hüququ; 11. Özünü şəxsən və ya seçilmiş müdafiəçi tərəfindən müdafiə etmək hüququ; 12. İmkan olmadıqda müdafiəçi ilə pulsuz təmin etmək; 13. Təqsirləndirilən şəxsin eleyhinə ifadə verən şahidlərə yaradılan eyni şəraitdə, təqsirləndirilən şəxsin lehinə ifadə verən şahidlərin dindirilməsi; 14. Təqsirləndirlən şəxsin, onun əleyhinə ifadə vermiş şahidləri sorğu-sual etmək hüququ; 15. Tərcüməçinin pulsuz köməyindən istifadə etmək hüququ; 16. Özünə qarşı ifadə verməmək və ya özünü təqsirli hesab etməyə məcbur olunmamaq hüququ; 17. Özünün iştirakı ilə mühakimə hüququ; 18. Əsaslı mühakimə hüququ; 19. Təqsirləndirilən şəxsin hökmün yüksək məhkəmə instansiyalarında yenidən baxılmasını tələb etmək hüququ; 20. Təqsirli bilinən şəxsin, məhkəmə ucbatından ona dəyən zərərin ödənilməsini tələb etmək hüququ; 21. Eyni ittihama görə təkrar məhkum olunmama hüququ;

B) Şəxslərin mülki-hüquq və vəzifələrini müəyyən edərkən onların prosessual hüquqları:

1. Məhkəmə müdafiəsi hüququ və ya məhkəmə ilə birbaşa təmasda olma; 2. Tərəflərin bərabər prosessual hüquqları; 3. Açıq məhkəmə araşdırması hüququ; 4. Məhkəmə araşdırmasının ağlabatan müddətdə aparılması hüququ; 5. Araşdırmanın müstəqil məhkəmə tərəfindən aparılması; 6. Araşdırmanın bitərəf məhkəmə tərəfindən aparılması; 7. Araşdırmanın qanun əsasında yaradılmış məhkəmə tərəfindən aparılması; 8. Öz mövqeyini qorumaq üçün lazımi dəlillərin toplanması üçün vaxtın və imkanın verilməsi; 9. Məhkəmə qərarının sübuta yetirilməsi; 10. Məhkəmə hökmünün yerinə yetirilməsi hüququ;

Sadalanan hüquqlar özündə müxtəlif beynəlxalq-hüquqi aktların məzmununa daxil olan ümumi hüquqi siyahını təqdim edir. Bu siyahını hərtərəfli hesab etmək olmaz. Milli qanunvericilikdə tədqiq olunan

hüququn məzmununa ədalətli məhkəmə araşdırmasının əlavə elementlərinin də daxil olması mümkündür. Məsələn, Mülki və Siyasi hüquqlar haqqında 1966-cı il paktının 14-cü maddəsinin 13№-li Ümumi qaydasındakı iradda (1984-cü il, iyirmi birinci sessiya) İnsan Hüquqları üzrə Komitə qeyd etmişdir ki, «II əsasnamənin 14-cü maddəsinin I bəndində nəzərdə tutulur ki «hər kəs işin ədalətli və açıq şəkildə aparılması hüququna malikdir». Bu maddənin 3-cü bəndində cinayət ittihamına çıxarılan qərara münasibətdə «ədalətli araşdırma»nın tələbləri dəqiqliklə araşdırılmışdır. Lakin 3-cü bəndin tələbləri özündə minimal zəmanətləri nəzərdə tutur» (3).

Monell və Morrisin Birləşmiş Krallığa qarşı qaldırılmış işində Avropa İnsan Hüquqları Məhkəməsi göstərmişdir ki, ədalətin tələbi hər bir araşdırma üçün mütləqdir və iştirak edən hər iki tərəfin dinlənilməsi ilə kifayətlənilməməlidir (4). Ona görə də ədalətli araşdırmanı müəyyən etmək üçün onu bütünlüklə tədqiq etmək lazımdır. Bundan irəli gələn prosessual hüquqların təsnifatı üçün ikinci əsası onların həyata keçirilmə mərhələlərindən asılı olaraq, bu şəkildə ifadə etmək olar, qeyd olunan əsasları ümdə tutaraq 3 qrup hüququ göstərmək olar:

1.Məhkəmə araşdırmasının başlanmasına qədər həyata keçirilən hüquqlar (məhkəməyə qədər mərhələ);

2.Bilavasitə işə məhkəmədə baxılarkən həyata keçirilməli olan hüquqlar;

3. Birinci instansiya məhkəməsi tərəfindən iş üzrə qərar çıxarılandan sonra həyata keçirilə bilən hüquqlar;

Qeyd etmək lazımdır ki, bəzi hüquqların həyata keçirilməsi bir neçə mərhələdə vacibdir və bir mərhələdə baş verən pozuntu ümumilikdə digər mərhələlərə mənfi təsir göstərə bilər. Bu da bütövlükdə ədalətli məhkəmə araşdırması hüququna əhəmiyyətli dərəcədə təsir edə bilər.

Ədalətli məhkəmə araşdırması hüququnun məzmununa daxil olan prosessual hüquqları qısa şəkildə nəzərdən keçirək.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, beynəlxalq-hüquqi aktlar ancaq şəxslərin hüquqlarını möhkəmləndirir (cinayət əməlində təqsirləndirilən və ya mülki hüquq və vəzifələri müəyyənləşdirir), amma dövlətlərin və onun icra orqanlarının müvafiq vəzifələrini konkret müəyyənləşdirmir. Misal üçün, İnsan Hüquqları və Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 5 və 6-cı maddələrindəki bir çox hüquqlara münasibət, dövlətlərin vəzifəsi Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında öz ifadəsini tapmışdır. İnsan Hüquqları Üzrə Avropa Konvensiyasının özündə «razılığa gələn yüksək tərəflər onların yurisdiksiyası altında olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin etməklə» məhdudlaşır (5, s. 2).

Analitik olaraq bu cür ifadə forması, Beynəlxalq paktın I2-ci maddəsində, MDB-nin İnsan Hüquqları və Əsas Azadlıqları Haqqında 1995-ci il Konvensiyasının 1-ci maddəsində də öz əksini tapmışdır.

I Məhkəmə icrasına qədər olan mərhələ:

1. Məhkəmə müdafiəsi və məhkəmə ilə birbaşa əlaqədə olma hüququ.

Bu təminatlar 2000-ci il əsas Hüquqlar haqqında Avropa Xartiyasının 1-ci bəndinin 47-ci maddəsində; Mülki və Siyasi hüquqlar haqqında beynəlxalq paktın 1-ci bəndinin 14-cü maddəsində; Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 8, 10-cu maddələrində; Amerika İnsan Hüquqları Konvensiyasının 1-ci bəndinin 8-ci maddəsində; İnsan və Xalq-

ların Hüquqları haqqında 1961-ci il Afrika Xartiyasının 1-ci bəndinin 7-ci maddəsində; Avropa İnsan Hüquqları Məhkəməsinin Qolderin Birləşmiş Krallığa qarşı iş üzrə çıxardığı qərarlarda möhkəmləndirilib (6).

Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinin mətnində ədalətə ulaşılmanın dəqiq ifadəsi yoxdur, amma Avropa İnsan Hüquqları məhkəməsinin qərarında, bu maddə hər bir insanın mülki-hüquqi xarakterli mübahisə ilə bağlı məhkəməyə müraciət hüququnu təmin edir. Məhkəmə ilə birbaşa əlaqə tələbinin məğzi ondan ibarətdir ki, hər bir şəxs işini məhkəməyə onun haqqında qərar çıxarılması məqsədilə göndərə bilmək imkanı olsun. Bu anda ona heç bir lüzumsuz hüquqi və ya praktiki sədlər mane olmamalıdır.

Lakin ədalətə çatmaq (dostup) hüququ – mütləq hüquq deyildir. Qolderin Birləşmiş Krallığa qarşı işində, Avropa İnsan Hüquqları Məhkəməsi göstərmişdir ki, bu hüquq, dövlət tənzimetməsini tələb edir, düzgünlük heç vaxt bu hüququn məzmunununa ziyan verməməlidir və Konvensiyada möhkəmləndirilmiş digər hüquqlarla mübahisəyə girməməlidir (7). Məhkəmə öz presedent hüququ əsasında qərara almışdır ki, yalnız aşağıdakı hallarda istənilən tənzimetmə 6-cı maddəyə uyğunlaşdırılacaq:

1.Əgər o qanuni məqsəd güdürsə (məsələn, məhkəməyə müraciət hüququnun yetkinlik yaşına çatmayanlar və ruhi xəstələrə münasibətdə məhdudlaşdırılması);

2. İstifadə olunan vasitələr və qoyulmuş məqsədə münasibətdə məntiqi, ağlabatan nisbilik prinsipinin qorunması.

Həmin Qolderin işində Məhkəmə etiraf etmişdi ki, Konvensiya xəyali və ya nəzəri olmayan hüquqları deyil, praktikada icra edilən və effektiv hüquqlara zəmanət üçün yönəldilibdir (7).

Məhkəmənin qərarına görə faktiki maneələr eynilə hüquqi maneələr kimi Konvensiyanı poza bilər. Buradan da belə qənaətə gəlinir ki, məhkəmə instansiyalarına müraciət təkcə faktiki deyil, həmçinin real olmalıdır. Əhalinin məhkəməyə müraciətinə bir çox amillər mənfi təsir göstərə bilər:

1. Məhkəməyə müraciət qaydasının həddindən artıq çətin olması;
2. Məhkəmə icraatının baha başa gəlməsi və dövlət rüsumları;
3. Məhkəməyə müraciətdə mütləq girov qoyulması;
4. Məhkəmələrin sayının az olması ilə əlaqədar onların yüklənməsi və işlərə baxılması müddətinin uzadılması;
5. İddia ərizələrinin qəbulunun rədd edilməsi;
6. Məhkəmə orqanının bu və ya başqa iş ilə əlaqədar hüquqi suallara və faktlara uyğun qərar çıxarması üçün tam yurisdiksiyasının olmaması;
7. Bəzi hallarda toxunulmazlıq hüququnun fəaliyyəti.

Bu gün üçün vətəndaşların məhkəməyə müraciət problemi bir çox ölkələrdə mövcuddur. Cünki beynəlxalq müqavilələr üzrə öz üzərinə öhdəlik götürmüş hər bir dövlət öz vətəndaşlarının ədalətli məhkəmə araşdırması hüququnu təmin etsin (demək, həm də məhkəməyə müraciət hüququ bura aiddir), dövlətlər bu hüququ sadəcə qanunvericilikdə möhkəmləndirməklə kifayətlənməməli, həmçinin onun icrası zamanı bütün maneələrin aradan qaldırılmasını təmin etməyə borcludur. Bizim fikrimizcə, bütün dövlətlər üçün eyni dərəcədə aşağıdakı aspektlər bu problemin həlli üçün aktualdır:

1. Məhkəmə və hakimlərin kifayət qədər təmin edilməsi (məhkəmə işləri, ərazidən və əhalinin sayından asılı olaraq);

2. Məhkəmə prosedurasının sadələşdirilməsi və fərqləndirilməsi;

3. İxtisaslaşmış köməyin professional hüquqşünaslar tərəfindən təmin edilməsi;

4. Əhalinin yoxsul təbəqəsi üçün ədalətli məhkəmənin pulsuz təminatı;

5. Hakimlərin ixtisaslaşdırılması.

Məhkəmə müdafiəsi hüququ və məhkəməyə müraciət hüququ dövlətlərin iki öhdəliyini uyğunlaşdırır:

a) vətəndaşların məhkəməyə müraciətinə mane olmamaq;

b) məhkəməyə effektiv və praktik müraciətin təmin edilməsi.

Araşdırma bir daha göstərir ki, dövlətlər bu hüququ yalnız qanunvericilikdə möhkəmləndirməklə kifayətlənməməli, onun reallaşmasına mane olan bütün ünsürləri aradan qaldırmalıdır.

Azərbaycan Respublikasının Məhkəmələr və Hakimlər Haqqında Qanununun II fəsli bütünlüklə ədalətli mühakimənin həyata keçirilməsinə dair müddəaları özündə ehtiva edir. Bu fəslin 7-ci maddəsində Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə (Bərabərlik hüququ) uyğun olaraq göstərilmişdir ki, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən asılı olmayaraq ədalət məhkəməsi hər bir şəxsin qanun və məhkəmə bərabərliyi əsasında həyata keçirilir (8, s. 5). Həmçinin 10, 11, 12-ci maddələrdə müdafiə hüququnun, təqsirsizlik prezumpsiyasının təmin edilməsi və məhkəmə icraatının açıq aparılması barədə müddəaları öz əksini tapmışdır. Sadalanan faktlar göstərir ki, müstəqilliyinin ilk addımlarını atan Respublikamız öz qanunvericiliyində ədalətli məhkəmə araşdırması hüququnu kifayət qədər möhkəmləndirmişdir.

## QEYDLƏR


1. Рабцевич О.Н. Право на справедливое судебное разбирательство. Международное и внутригосударственное правовое регулирование. М.: 2005.
2. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: 1980.
3. www.lumn.edu/humunrts.
4. Judgement of ECHR of 2 March 1987 Monell and Morris Nhe United Kingdom/ Paras 55-77// series A№115.
5. İnsan Hüquqlarının və Azadlıqlarının Müdafiəsi haqqında Konvensiya, Qanun nəşr evi.
6. Рабцевич О.Н. Право на справедливое судебное разбирательство. Международное и внутригосударственное правовое регулирование. М.: 2005.
7. Европейский суд по правам человека. Избранные решения. Т.,1, с. 45.
8. Məhkəmələr və Hakimlər haqqında Azərbaycan Respublikasının Qanunu. Qanun nəşr evi.


## СОДЕРЖАНИЕ ПРАВА НА СПРАВЕДЛИВОЕ СУДЕБНОЕ РАЗБИРАТЕЛЬСТВО


**Т.Т.ВЕЛИЕВ**


## РЕЗЮМЕ


Следует заметить, что сами формулировки международно-правовых актов закрепляют лишь права лиц (обвиняемых в уголовном преступлении или тех, чьи граждан-

ские права и обязанности определяются), но не устанавливают конкретные корреспондирующие обязанности государств и их органов. Например, в отношении многих прав, закрепленных в ст. 5 и 6 ЕКПЧ, обязанности государств сформулированы в решениях ЕСПЧ. Сама же ЕКПЧ ограничивается лишь положением о том, что «Высокие Договаривающиеся Стороны обеспечивают каждому человеку, находящему под их юрисдикцией, права и свободы, определенные в разделе Ы настоящей Конвенции». Аналогичные по смыслу формулировки относительно общей обязанности государств обеспечит права человека содержаться и в ст. 2 Международного пакта, ст.1 Конвенции СНГ о правах и основных свободах человека 1995г.

## CONTENTS OF ENTILEMENT FAIR COURT EXAMIMINATION

**T.T.VELIYEV**

**SUMMARY**

In this article, on the base of huge material the author shoes that, the main principle of protection of human right can be reinstatet by use of leterminate procedure. Article 5-6 of Europen Convention on human right applies to achiene human right 1995 year.